**Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə 2025-cü ilin yanvar-noyabr aylarının yekununa dair**

**MƏLUMAT**

2025-ci ilin yanvar-noyabr aylarında hüquq mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 7441 cinayət faktı aşkarlanmışdır. Onlardan 2403-ü narkotik vasitələrin qanunsuz satışı, 4850-si narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 186-ı narkotik tərkibli bitkilərin qanunsuz əkilib becərilməsi, 2-si bu kateqoriyadan olan digər cinayətlərlə bağlı olmuşdur.

8 ton 334 kq 712,932 qram narkotik vasitələrin və psixotrop maddələrin 7 ton 037kq 413,78 qramını marixuana, 745 kq 500,982 qramını heroin, 144 kq 728,924 qramını tiryək, 75 kq 384,242 qramını həşiş, 153,551 qramını kokain, 181 kq 871,261 qramını digər narkotik vasitələr və 149 kq 660,186 qramını psixotrop maddələr təşkil etmişdir. Həmçinin, göstərilən dövr ərzində 15516 ədəd metadon, 18938 ədəd çətənə bitkisi, eləcə də 1 kq 111,692 qram, 108 həb, 39 kapsul güclü təsir edən maddə qanunsuz dövriyyədən götürülmüşdür.

Hesabat dövründə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin təşkilatçılığı və digər aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə 1201,5 hektar sahədən yaş kütləsi 304 ton 762 kq olan 2 600 707 ədəd yabanı halda bitmiş narkotik tərkibli bitkilər müəyyən olunaraq müvafiq qaydada məhv edilmişdir.

Qanunsuz dövriyyədən çıxarılmış 8 ton 334 kq 712,932 qram narkotik vasitələrin və psixotrop maddələrin ümumilikdə dəyəri 219 milyon 573 min AZN kimi qiymətləndirilir.

Narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayət məsuliyyətinə 5117 nəfər cəlb edilmiş, onlardan 17-18 yaşadək 16 nəfər, 18-25 yaşadək 336 nəfər, 26-29 yaşadək 760 nəfər, 30 yaş və ondan yuxarı isə 4005 nəfər təşkil edir. Həmin şəxslərdən 4961 kişi, 156 qadın olmuşdur. Cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərdən 85 nəfəri xarici ölkə vətəndaşıdır.

Məsuliyyətə cəlb edilmiş 85 xarici ölkə vətəndaşından 29-u İran İslam Respublikası, 25-i Rusiya, 7-si Gürcüstan, 19-u Türkiyə, 2-si Ukrayna, 1-i Amerika Birləşmiş Ştatları, 1-i Türkmənistan, 1-i Qazaxıstan vətəndaşı olmuşdur. Xarici ölkə vətəndaşlarından ümumilikdə 936 kq 501,249 qr müxtəlif növ narkotik vasitə və psixotrop maddə və 271,772 qr çətənə bitkisi götürülmüşdür.

Hüquq mühafizə orqanları tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı 231 fakt aşkar edilmiş, həmin faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 3 ton 847 kq 095,152 qr və 15 516 həb metadon narkotik vasitə və psixotrop maddə, 13194 ədəd həb və 5,7 qr güclü təsir edən maddə çıxarılmışdır.

Ümumilikdə, aşkar edilmiş cinayətlərin 274 qrup halında törədilmiş və həmin faktlar üzrə qanunsuz dövriyyədən çəkisi 2 ton 658kq 377,574 qr nakotik vasitə, psixotrop maddə maddə və 309 kq 436,2 qr güclü təsir edən maddə müsadirə edilmişdir.

2439 cinayət faktı əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilmiş və onlardan 2 ton 044 kq 413,166qr müxtəlif növ narkotik vasitə və psixotrop maddə müsadirə edilmişdir.

Təhlil göstərir ki, 2024-cü ilin yanvar-noyabr ayları ilə müqayisədə cari ilin müvafiq dövrü ərzində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı hüquq mühafizə orqanları tərəfindən aşkar edilən faktların ümumi sayı 1108, qanunsuz satış ilə bağlı faktların sayı 434, satış məqsədi olmadan qanunsuz əldə edilib saxlanılması

ilə əlaqədar faktların sayı 628, narkotik tərkibli bitkilərin qanunsuz kultivasiya edilməsi faktlarının sayı 42, bu kateqoriyadan olan digər cinayət faktlarının sayı 4, qaçaqmalçılıqla bağlı faktların sayı 4, qrup halında olan cinayətlərin sayı 39 fakt, məsuliyyətə cəlb olunmuş şəxslərin sayı 1576 nəfər azalmışdır. Bununla yanaşı qanunsuz dövriyyədən çıxarılmış narkotiklərin çəkisi 1 ton 931 kq 065,487 qr artmışdır.

Müsadirə edilmiş müxtəlif növ narkotik vasitələrin 7 ton 037kq 413,78 qr-nı (84,4 %) marixuana təşkil etmişdir. Onun da 6 ton 204 kq 757,98 qramı (88,1%) tərkibi psixotrop maddələrlə zənginləşdirilmiş xarici ölkə mənşəli olmuşdur. 832 kq 655,8 qr qram (11,8 %)isə iqlim şəraitinə uyğun olaraq ölkə ərazisində istixanalarda, zirzəmilərdə, həyətyani sahələrıə, meşə ovalıqlarında və çay yataqlarında qanunsuz kultivasiya edilmişdir.

Dövlət Komissiyasının İşçi Qrupunun təşkilatçılığı ilə 2025-ci ilin 28 yanvar və 29 may tarixlərində qanunsuz dövriyyədən çıxarılmış və ya müsadirə olunmuş külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə Komissiya tərəfindən ümumilikdə 2358 məhkəmə qərarına əsasən barəsində məhvetmə qərarı qəbul edilmiş 10 ton 121 kq 801,942 qr müxtəlif növ narkotik vasitə, psixotrop maddə və onların prekursorları, həmçinin 8644 ədəd çətənə bitkisi məhv edilmişdir.

Eyni zamanda hesabat dövründə qanunsuz dövriyyədən çıxarılmış və ya müsadirə edilmiş az və xeyli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə komissiyaların birgə təşkilatçılığı 64 rayon və şəhərdə 2317 məhkəmə hökmü üzrə barəsində məhvetmə qərarı qəbul edilmiş ümumi çəkisi 57 kq 812,817 qr və 21 həb müxtəlif narkotik vasitələrin, psixotrop maddələrin, 4 kapsul güclü təsir edən maddənin və 562 ədəd çətənə bitkisinin məhv olunması təmin edilmişdir.

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən bütün növ sərxoşluq hallarının müəyyənləşdirilməsi üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinə 87765 nəfər istiqamətləndirilmişdir. Onlardan narkotiklərdən istifadənin təyin edilməsi məqsədilə tibbi müayinədən keçirilmiş 5179 nəfərdən 2719 nəfərinin istifadəçi olması müəyyən olunmuş və bununla bağlı zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən təqdim edilmiş məlumata əsasən yanvar-noyabr ayında narkomaniya, narkotik maddələrin qəbulundan yaranan psixi və davranış pozuntuları ilə əlaqədar dispanser nəzarətində olanların sayı 2373 nəfər təşkil etmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 2344 nəfər az olmuşdur. Onlardan 112 nəfəri opioidlərin (692 nəfər az), 758 nəfəri kannabinoidlərin (12 nəfər çox), 1503 nəfəri isə eyni zamanda bir neçə narkotik maddənin qəbul edilməsi nəticəsində psixi və davranış pozuntuları yaranmış (1664 nəfər az) şəxslərdir. Həmin şəxslərdən 92 nəfəri (110 nəfər az) qadındır. 479 nəfər dispanser nəzarətindən çıxarılmışdır. Onlardan 11-i qadın olmuşdur.

Bundan əlavə profilaktik qeydiyyata götürülənlər 2195 nəfər (270 nəfər az) təşkil etmişdir. Onlardan 998 nəfər (24-ü qadın) qeydiyyatdan çıxarılıb.

Hazırda metadonla əvəzedici müalicə proqramı üzrə 3 məntəqədə (Respublika Narkoloji Mərkəzində 282, QİÇS-lə Mübarizə Mərkəzində 315, Sumqayıt Narkoloji Mərkəzində 124 nəfər) 721 xəstə müalicə alır.

Narkotik vasitələrdən aşırı doza nəticəsində 5-i qadın və 87-si kişi olmaqla ümumilikdə 92 nəfər (yanvar ayı-8 nəfər, fevral ayı - 9 nəfər, mart ayı- 4 nəfər, aprel ayı 7 nəfər, may ayı 8 nəfər, iyun ayı 9 nəfər, iyul ayı - 10 nəfər, avqust ayı -11 nəfər, sentyabr ayı 9 nəfər, oktyabr ayı -7 nəfər, noyabr ayı -10 nəfər ) vəfat etmişdir ki, onlardan 18 yaş -1 nəfər, 19- 20 yaş -2 nəfər, 23 yaş - 1 nəfər, 26 yaş - 4 nəfər, 27 yaş- 1 nəfər, 28 - 29

yaş - 3 nəfər, 30 - 40 yaşadək - 37 nəfər, 41-50 yaşadək - 31 nəfər, 50 - 53 yaşadək - 7 nəfər, 55 - 58 yaş - 2 nəfər, 60-62 yaş - 3 nəfər təşkil edir. 2024-cü ilin yanvar - noyabr ayları ilə müqayisədə cari ilin müvafiq dövründə narkotik vasitələrdən aşırı doza nəticəsində vəfat edənlərin sayı 14 nəfər (15,2%) artmışdır.

Respublika QİÇS-lə Mübarizə Mərkəzinin verdiyi məlumata əsasən ölkədə narkomanların İnsanın İmmunçatışmazlığı Virusuna yeni yoluxma hadisələrinin sayında azalma müşahidə olunur. 2025-ci ilin noyabr ayının sonuna kimi aşkarlanmış İİV-ə yoluxmuş Azərbaycan vətəndaşları arasında 54 (4,9%) nəfəri inyekson narkotik istifadəçiləri olmuşdur.

2025 ilin yanvar-noyabr ayları ərzində "802" qaynar xətt telefon zəng xidmətinə1128 vətəndaş müraciəti daxil olmuşdur ki, onların 129-i narkotik vasitələrin qanunsuz dövriyyəsi, 65-ı narkotik asılılıqdan müalicə, 934-i isə digər məsələlərlə (təkrar müraciət, qanunvericiliyin müddəlarının izah edilməsi, məcburi müalicəyə dair prosedurlar və s.) bağlı olmuşdur. Qeyd olunan müraciətlər üzrə müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti orqanlara 194 məktub ünvanlanmışdır.

802 qaynar xətt zəng xidməti vasitəsilə narkotik vasitələrin və narkomanlığın yayılmasının qarşısını almaq məqsədilə aidiyyəti təşkilatlarla və vətəndaşlarla operativ qaydada əlaqələndirilmə təmin edilərək, narkotik vasitələrin qanunsuz dövriyyəsinə dair verilən məlumatlar əsasında müvafiq cinayət işləri qaldırılmış və qanunsuz dövriyyədən külli miqdarda narkotik vasitələr götürülmüş, narkotik istifadəçiləri könüllü müraciətləri əsasında ixtisaslaşmış tibb müəssisələrində müalicəyə yönləndirilmiş, narkotik asılılıqdan əziyyət çəkən ailələrə psixoloji dəstək və mövcud qanunvericiliyin müddəaları izah edilərək zəruri tövsiyələr verilmişdir.

Hesabat dövrü ərzində Dövlət Komissiyasının İşçi Qrupunun təşkilatçılığı ilə aidiyyəti dövlət qurumlarını cəlb etməklə ümumilikdə 165 tədbir (99 maarifləndirici və təşkilati tədbir, 58 təlim, 6 sosial layihə, 2 televiziya kanalında verilişdə iştirak) təşkil edilmişdir.

**Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu**